https://doi.org/10.59849/aidd.2024.54

# Artificial Intelligence and Folklore: Artificial Intelligence Technologies Derived from Folklore

**Hikmet Valeh Guliyev**
**Assoc. Professor**
*Institute of Information Technology, Ministry of Science and Education of the Republic of Azerbaijan*
*Institute of Folklore of Azerbaijan National Academy of Sciences*
*E-mail: guliyevh@mail.ru*
*ORCID ID: 0000-0002-9166-5627*

**Abstract.** In the study several theme areas on the problem of "the artificial intelligence and folklore" are determined and the research about the common points are carried out.

Initially, the relationship among the artificial intelligence and folklore was considered in the context of the collective natural intellectual essence of folk knowledge. Then a comparative analysis of the similar nature, general patterns and principles of work of collective natural intelligence and artificial intelligence is given. At the same time, in the context of the contributions of collective natural intelligence to artificial intelligence technologies, paremiologically units (proverbs) were brought into the attention and the research was carried out on the basis of specific examples. It has been established that proverbs based on relations among the individual objects and situations of the social environment are based on logical imperatives. The analogical comparisons are made among the systems based on artificial intelligence technologies and their role in the syntagmatic structure of paremiologically units, semantics of texts and socio-cultural system. In particular, paremiologically units (proverbs), which appear on the basis of certain experiences and stereotypes, contain knowledge of a "warning", "prohibitive", prognostic nature and the application of this type of ready-made knowledge to artificial intelligence technology as a transductive model has broad prospects.

**Keywords:** artificial intelligence, folklore, proverbs

## Süni intellekt və folklor: folklordan qaynaqlanan süni intellekt texnologiyaları

**Hikmət Valeh oğlu Quliyev**

Araşdırmada "süni intellekt və folklor" probleminə dair bir neçə mövzu istiqaməti müəyyənləşdirilmiş və ortaq nöqtələr üzərindən tədqiqat aparılmışdır.

Məqalədə ilkin olaraq, süni intellekt və folklor münasibətlərinə xalq biliyinin kollektiv təbii intellekt mahiyyəti kontekstində baxılmışdır. Daha sonra kollektiv təbii intellekt və süni intellektin oxşar təbiətinin, ümumi qanunauyğunluqlarının və iş prinsiplərinin müqayisəli təhlili verilmişdir. Eyni zamanda kollektiv təbii intellektin süni intellekt texnologiyalarına töhfələri kontekstində paremioloji vahidlər (atalar sözləri) diqqət mərkəzinə gətirilmiş və konkret nümunələr əsasında tədqiqat aparılmışdır. Müəyyən olunmuşdur ki, sosial mühitin ayrı-ayrı obyekt və situasiyaları arasında münasibətlərə söykənən atalar sözləri məntiqi imperativlər üzərində qurulmuşdur. Paremioloji vahidlərin təqdim olunduğu sintaqmatik struktur, mətnlərin semantikası və sosial-mədəni sistemdəki rolu ilə süni intellekt texnologiyalarına əsaslanan sistemlər arasında anoloji müqayisələr aparılmışdır. Xüsusilə də, müəyyən təcrübə və stereotiplər əsasında ortaya çıxan paremioloji vahidlər (atalar sözləri) özündə "xəbərdaredici", "yasaqedici", proqnostik mahiyyətli biliyi ehtiva edir və bu tipli hazır biliyin transduktiv model kimi süni intellekt texnologiyasına tətbiqi geniş perspektivlərə malikdir.

**Açar sözlər:** süni intellekt, folklor, atalar sözləri

**Giriş:** Son dövrlərdə süni intellektin sosial həyatın müxtəlif sferalarında tətbiqi onu insanın gündəlik fəaliyyətinin vacib elementlərindən birinə çevirmişdir. Eyni zamanda hazırda müxtəlif elmi problemlərin həllində süni intellekt texnologiyalarının tətbiqinin miqyası sürətlə genişlənməkdədir. Belə bir şəraitdə süni intellektin humanitar və sosial elmlər, o cümlədən, folklor sahəsində tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, süni intellekt öz başlanğıcını – prototip modelini təbii intellektdən götürür, bu halda kollektiv təbii intellekt mahiyyəti kəsb edən folklorla süni intellekt arasında müxtəlif səviyyəli əlaqələrdən bəhs edə bilərik. Hələlik ən ümumi mənada burada iki rakursu bir-birindən fərqləndirmək mümükündür:

Birincisi, süni intellektdən folklora baxış. Bu rakursdan yanaşdıqda folklorun müxtəlif elmi problemlərinin həllində təbii dilin emalı (NLP) və dərin təlim texnologiyalarının tətbiqi nəzərdə tutula bilər. Bu halda folklorun tədqiqata cəlb olunan müəyyən bir korpusunun – məsələn, "*məktəb əfsanələrinin mövzuları və təkrarlanan motivləri müəyyən edilə... müxtəlif növləri təsnif oluna, .... onların mənşəyi, mənaları və mədəni mahiyyəti barədə daha dərin fikirlər əldə edə bilərik"* (URL – 1). Yəni süni intellekt texnologiyalarının tətbiqi ilə müəyyən bir datanı, konkret olaraq folkloru təhlil etmək və keyfiyyətli bilik əldə etmək mümkündür.

İkincisi, folklordan süni intellektə baxış. Bu halda folklor süni intellektin əsasını təşkil edən təbii intellekt, daha dəqiq desək, kollektiv təbii intellekt kimi diqqəti cəlb edir. Bu rakursdan baxdıqda xalq biliyi süni intellektin potensial mənbələrindən biri kimi götürülə bilər. Başqa cür desək, özündə müxtəlif fərdlərin düşüncə (rasional) və duyumlarını (emosional), çoxmənalı, çoxyaruslu, çoxölçülü mövqe və maraqlarını kollektiv təbii intellekt məxrəcində təcəssüm etdirən folklor, əslində, süni intellektin ilham mənbələrindən biri olmaq potensialını özündə ehtiva edir.

Milli elmi mühitimizdə "süni intellekt və folklor" mövzusu, ilkin olaraq qeyri-səlis məntiq rakursundan araşdırılmağa başlanılmışdır. K.Abdulla və R.Əliyev "Kitabi-Dədə Qorqud" dastanını (Abdulla, Əliyev, 2023) L.Zadənin qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsi (eposun məntiqində *"üçüncünü istisnanın istisnası", "nə... nə..."* sxemi və s.) kontekstində sistemli şəkildə təhlil edirlər. Bundan əlavə, M.Kazımoğlu bir zamanlar özünün araşdırdığı mövzulara – ikiləşmə, demonizm, gülüş və s.-yə "qeyri-səlis" məntiq pəncərəsindən baxmaqla (Kazımoğlu, 2023) maraqlı müqayisə və qənaətlər irəli sürür. Şübhəsiz ki, hər iki tədqiqat qeyri-səlis məntiq və folklor problemi çərçivəsində birləşməklə yanaşı, bu sahədəki gələcək tədiqatlar üçün geniş perspektivlər vəd edir.

Son illərdə "süni intellekt və folklor" mövzusunda dünyada müxtəlif istiqamətli araşdırmalar meydana çıxmaqdadır. Xüsusilə də, süni intellektin emal etdiyi mətnlərin, o cümlədən nağılların (Bilge Savcı, 2023: 1-14; Aksoy, 2023: 524-536; Ilıcak, Çinko, 2021; Kızıldağ, 2023: 1759-1775) ənənəvi düşüncə ilə uyğunluğu və özünəməxsusluğuna həsr olunmuş araşdırmalar diqqəti cəlb edir. Lakin "süni intellekt və folklor" probleminin daha böyük çətiri informasiya inqilabları, epoxal dəyişmələr çərçivəsində sosial-mədəni mühitdə baş verən dəyişikliklər, texnolojiləşmə, rəqəmsallaşma, virtuallaşma proseslərinin təsiri ilə xalq biliyində meydana gələn transformasiyaları əhatə edir. Bu baxımdan *dördüncü sənaye inqilabı və ənənəvi mədəniyyət* (Özdemir, 2019A: 207-241), *nəsillərarası əlaqə və mədəni dəyişmə* (Özdemir, 2019B: 125-149), *ənənəvi bilik və süni intellekt* (Özdemir, 2023: 1-23), *beşinci sənaye inqilabı, süni intellekt və mədəniyyət* (Koçak, 2020: 1-17), *posthumanizm, transhumanizm* (Kızıldağ, 2021: ; Thompson, 2018; Thompson 2019A: 39-65; Thompson 2019B), *post həqiqət və folklor* (Özdemir, 2021: 13-61) və s. kimi mövzular bu və ya digər dərəcədə "süni intellekt və folklor" çətiri altında birləşə bilər. Lakin bizim burada təqdim etdiyimiz tədqiqat "süni intellekt və folklor" probleminə "kollektiv təbii intellekt və süni intellekt" arasında oxşarlıqlar, "süni intellektə folklorun potensial töhfələri", süni intellektin "insaniləşdirilməsi"ndə folklorun imkanları, nəhayət, kollektiv təbii intellekt örnəyi kimi atalar sözlərində mövcud olan kollektiv biliyin süni intellektə tətbiqi perspektivlərini özündə ehtiva edir.

**Süni intellekt və folklor: kollektiv təbii intellektlə süni intellektin oxşar təbiətinin, ümumi qanunauyğunluqlarının müqayisəli təhlili**

Bəllidir ki, süni intellekt təbii intellektin davamı, əkizi, insana aid bir sıra intellektual fəaliyyətlərin – öyrənmə, ətraf aləmi dərketmə, tanıma, yadda saxlama, düşünmə, qərar qəbuletmə, proqnozlaşdırma və s.-nin *"alqoritmlərə, proqramlara, modellərə köçürülməsi"* (Əliquliyev, 2023) nəticəsində ortaya çıxan intellektual metodlara və imkanlara malik sistemdir. Tətbiq sahəsindən asılı olmayaraq, süni intellektin ən mühüm xüsusiyyəti insan kimi öyrənmə, düşünmə, yadda saxlama və

verilənlər əsasında qərar qəbul etmə imkanlarıdır. Necə ki, insan özünün təbii intellektual imkanları, hiss və duyğuları, ağıl və məntiqi hesabına dünyanı (fiziki və sosial gerçəkliyi) dərk edir, keçmişdə olanları yadda saxlayır, bəzi məqamlarda keçmişi xatırlamaqla, müqayisələr aparır, qeyri-müəyyənliyi müəyyənliyə çevirir, gələcək barədə proqnoz verir, müəyyən əlamətlər, verilənlər əsasında qərar qəbul edir, eləcə də süni intellektin ən böyük hədəfi, "iddiası" insana xas olan bu və ya digər keyfiyyətləri mənimsəməkdir. Metaforik şəkildə desək, süni intellekt insan kimi düşünmək, davranmaq və duymaq "arzusundadır". Son dövrlərdə ortaya çıxan ChatGpt və süni intellekt proqramları mətn, şəkil, rəsm və s. emal etməklə, metaforik desək, yaradıcılığı, yaratmağı mənimsəmək "iddiasındadır".

Süni intellektə verilən çoxsaylı tərifləri nəzərə alaraq demək olar ki, ən ümumi mənada süni intellekt dedikdə insana məxsus düşüncə və fəaliyyətləri icra etmə nəzərdə tutulur. Məşhur Britannica ensiklopediyasında süni intellekt üzrə tədqiqatlarda intellektin 4 komponentinin vurğulandğı qeyd olunur. Bunlar *"öyrənmə", "düşünmə", "problem həll etmə", qavrama və dildən istifadə"*dir. (Copeland, 2024). Beləliklə, öyrənmə, düşünmə, qərar qəbuletmə, proqnozlaşdırma və s. imkanları olan sistemlərə süni intellekt texnologiyaları deyilir. Çünki məhz bu imkanlar hesabına süni intellekt müxtəlif vəziyyətləri yadda saxlaya, anoloji təcrübəyə müraciət edə, çoxsaylı situasiyaları tutuşdura, presidentləri nəzərə almaqla optimal qərar qəbul edə bilər. Beləliklə, süni intellekt insanın təbii intellektual keyfiyyət və qabiliyyətlərini – düşünmə, keçmişdə olanları yadda saxlama, müəyyən bir şəxs və ya hadisə barədə məlumat toplama, əvvəlki hadisələrlə tutuşdurma, qiymətləndirmə, proqnozlaşdırma (öncəgörmə, gələcəkdən xəbər vermə, uzaqgörmə və s.) və s. kimi xüsusiyyətləri ehtiva edir. Göründüyü kimi, süni intellekt təbii idraki prosesləri həyata keçirməklə, başqa sözlə, onları "imitasiya" etməklə işləyir. Bu onu göstərir ki, süni intellektin əsas ilham mənbəyi, ana qaynağı təbii intellektdir. Yeri gəlmişkən onu vurğulamaq lazımdır ki, təbii intellekt və süni intellekt münasibətləri rasional, məntiqi qavrama, dərketmə üzərində qurulduğundan fəlsəfi olaraq qarşıya çıxan ən fundamental problem – emosional-psixoloji, hissi-intuitiv əlamət və xüsusiyyətlərin riyazi "dilə" – alqoritmə, proqrama, modelə çevrilməsi məsələsidir. Təxminən belə suallar meydana çıxır ki, "süni intellekt qorxa bilərmi?!", "süni intellekt utana bilərmi?!", "süni intellekt küsə bilərmi?!", "süni intellekt vicdan əzabı çəkə bilərmi?!", "süni intellekt sevə bilərmi?!" və s. Filosof Füzuli Qurbanov yazır ki, *"... söhbət intellektdən gedirsə, məsələ yalnız feili davranışlarla məhdudlaşmamalı, texniki hərəkətlərin diapazonu ilə sərhədlənməməlidir. Süni intellektin duyan, emosiya yaradan, hiss edən "qəlbi" olmalıdır. Onun "əfv etmək", "bağışlamaq", "sevmək", "səbr etmək", "ümumi insani marağı anlamaq", "mədəniyyəti yaratmaq və qorumaq" və s. kimi "şəxsi" keyfiyyətləri olmasa, bəşəriyyətin və insanlığın taleyi baxımından bir sıra bədbin proqnozların reallaşmasına zəmin hazırlana biləcəyinə qəbul etmiş olarıq" (*Qurbanov, 2022: 236*)*. Süni intellektin insanilləşdirilməsi, daha doğrusu, intellektlə yanaşı, mənəvi dəyərlər, sosial-mədəni varlıq mahiyyəti kəsb etməsi, təbii ki, intellektual, rasional imkanlarla bərabər, hissi-emosional xüsusiyyətləri də əxz etməsini şərtləndirir. Göründüyü kimi, əfv etmək, səbr etmək, bağışlamaq, qorxmaq, utanmaq, küsmək, vicdan əzabı çəkmək, sevmək və s. kimi emosional hislər, etik-mənəvi dəyərlər insanın sosial-mədəni varlıq kimliyini, sosial mühitlə və münasibətlərlə şərtlənən davranış və düşüncə spesifikasını, bütövlükdə, milli-etnik stereotiplərlə xarakterizə olunan tipologiyasını özündə ehtiva edir. Eyni zamanda bu tipli əlamətlərin bir qrupu universal olmaqla yanaşı, bəziləri də etnik-milli zəminə bağlı olduğundan nəzəri olaraq onların süni intellektə "tanıdılması" bir sıra fərdilikləri, spesifikliyi zəruri edir. Yəni **süni intellektin təbii intellekt daşıyıcısı olan insandan ən böyük fərqi rasional-məntiqi imkanlarla hissi-emosional duyğuların kəsişməsi, başqa sözlə, şüuri və qeyri-şüurinin məxrəcində ortaya çıxan "eqo"sunun, "mən"liyinin olmamasıdır. Çünki eqo hesabına fərd psixoloji komplekslərlə sosial stereotiplər arasında əlaqəni "qura", sosial şərtlərə adekvatlaşa bilər. Bu gerçəklik süni intellektin varlıq sərhədlərini müəyyənləşdirir və hazırki məhdudiyyətlərini ortaya qoyur.** Süni intellekt yeni imkanlar əldə etdikcə onun intellektual miqyası dərinləşə və genişlənə biləcəkdir. Lakin ən mühüm problem elə insana məxsus məntiqi intellektual xüsusiyyətlərlə yanaşı, emosional duyğuların da süni intellektə "tanıdılması", başqa sözlə desək, süni intellektin insanilləşdirilməsidir. Nəzərə almaq lazımdır ki, insan yalnız koqnitiv varlıq deyil, o dünyanı təkcə rasional-məntiqi planda qavramır, o həm də duyğu və hisləri, mənəvi mahiyyəti ilə dünyanı və özünü dərk edərək yenidən dəyərləndirir. Beləliklə, **insanın** (şüuri və qeyri-şüuri planda), **sosial gerçəkliyin** (dəyişən sosial şərtlər kontekstində), **fiziki aləmin** (metafiziki gerçəkliyin mövcudluğu) dinamikliyi, qeyri-stabilliyi, qeyri-müəyyənliyi, qeyri-adiliyi, çoxmənalılığı, intəhasızlığı və s. rasional məntiq sərhədlərinə "sığışmır". Başqa cür ifadə etsək, belə bir reallığın məntiqi ifadəsi heç bir halda səlisliklə, dəqiqliklə, konkretliklə ifadə oluna bilmir. Şübhəsiz ki,

gerçəkliyin bu şəkildə dərki fundamental olaraq səlis məntiqə alternativlərin – daha geniş imkanlara malik dəyərləndirmə və qiymətləndirmə ölçüsünün – qeyri-səlis məntiqin ortaya çıxmasını şərtləndirmişdir. Təsadüfi deyildir ki, *"obyektiv aləm(in) .... adekvat təsvirini verən"* (Abdulla, Əliyev, 2023: 28) qeyri-səlis məntiq *"kateqoriallıqdan uzaq, insana, onun dünyanı dərk və qəbul etmə prinsiplərinə daha yaxın olan bir düşüncə tərzidir"* (Abdulla, Əliyev, 2023: 28). Göründüyü kimi, insanın dünyanı dərk etməsi və yaradıcılıqda ifadəsinin ən adekvat "yolu" qeyri-səlis məntiqin "dili"dir. Hesab edirik ki, burada məsələ təkcə səlis məntiqin obyektiv aləmi təsvirindəki formallığı və məhdudiyyətləri ilə bağlı deyil. Məsələ təkcə qeyri-səlis məntiqin seçim imkanlarının genişliyi ilə də məhdudlaşmır. Əsl məsələ bundadır ki, insanın istər fiziki, istərsə də metafiziki aləmi qavraması və ifadə etməsi (mədəni yaradıcılıqda, dildə, sözdə, yazıda, hərəkətdə, materialda və s.) özü çoxparametrlidir. Çünki yaradıcılıq prosesi **məntiq (şüurun)** və **emosiyanın (instinktlərin, qeyri-şüuriliyin) çulğalaşmasından, qeyri-səlis çoxluğundan ibarətdir. Bu isə o deməkdir ki, kollektiv düşüncənin məhsulu olan folklor – xalq biliyi özünün mahiyyəti etibarı ilə insan, dünya və sosial mühit barədə təsəvvürlərin metafora və simvollarla işarələnmiş qeyri-səlis təsvir dilidir.** Odur ki, "süni intellekt və folklor" problemi kontekstində folklorun kollektiv təbii yaradıcılıq (məntiq və emosiya; şüur və qeyri-şüuri) potensialı xüsusilə nəzərə alınmalıdır.

Süni intellektin səlis və yaxud qeyri-səlis məntiqlə müəyyənləşən intellektual qabiliyyətlərinə hissi-emosional imkanların əlavə olunması barədə bir məqamı da vurğulamaq istərdik. Məlumdur ki, (təbii) **intellekt deyərkən yalnız rasional, məntiqi qavrama qabiliyyətləri nəzərdə tutulduğuna baxmayaraq, həmin qabiliyyətlətin formalaşmasına təsir edən, qavrama və dərketməni təmin edən, emosional-psixoloji reseptorlar mövcuddur ki, bunlar duyma, hissetmə və s. kimi intuitiv əlamətləri də özündə ehtiva edir.** Yəni rasional qərarı yetişdirən indikatorlar arasında təkcə qavrama və rasional dərketmə deyil, emosional-psixoloji hissiyyatar da rol oynayır. Bu baxımdan məsələyə yanaşdıqda "süni intellekt və folklor" problemində mühüm istiqamətlərdən biri kimi xalq biliyinin mahiyyətindəki emosional-psixoloji potensialın süni intellektə transformasiya məsələsi diqqəti cəlb edir. Hesab edirik ki, xalq biliyi nümunələrinin təkcə şüuri deyil, qeyri-şüuri, rasional deyil, irrasional, məntiqi-əqli deyil, eyni zamanda emosional-psixoloji mahiyyət kəsb etməsi, ona yalnız kollektiv təbii intellekt kimi deyil, eyni zamanda kollektiv təbii yaradıcılıq (düşüncə və duyum, maraqlar, ehtiyaclar, stereotiplər və s. ) kontekstində baxmağı və süni intellektin insanıləşdirilməsi – sosial mühitdə adekvatlıq imkanlarının artırılması perspektivindən yanaşmanı da aktual edir.

Süni intellekt, əslində təbii idraki prosesləri həyata keçirməklə işləyir. İnsan ətraf aləmi müşahidə etməklə, şəxsi təcrübə qazanmaqla, başqalarının təcrübələrini öyrənməklə, hadisələr, obyektlər və insanlar arasında əlaqə və münasibətləri aşkarlamaqla ümumilikdə gerçəkliyi qavrayır və dərk edir. Bəllidir ki, müəyyən bir qərar qəbuletmənin əsasında müxtəlif indikatorlar üzrə toplanmış məlumatların analizi və sintezi dayanır. Burada sadədən mürəkkəbə və yaxud xüsusidən ümumiyə, eləcə də mürəkkəbdən sadəyə, ümumidən xüsusiyə doğru hesablama imkanları mövcuddur. Məsələn, süni intellektin ən geniş yayılmış istiqamətlərindən biri olan Ekspert sistemləri konkret olaraq müəyyən bir sahə üzrə toplanmış məlumatlar əsasında analizlərin aparılması və qərarların qəbulunda tətbiq edilir. Riyazi hesablama, ölçmə, qiymətləndirmə, dəyərləndirmə və s. kimi əməliyyatlar hesabına ortaya çıxan bilik (nəticə, qənaət) süni intellektə əsaslanan texnoloji sistemlərdə ayrı-ayrı komponentlərin müqayisəsi, müxtəlif şərtlərin (zaman, məkan, temperatur, təzyiq və s.) kompleks qiymətləndirilməsi əsasında baş verir. Məsələn, 2023-cü ildə mətbuatda belə bir məlumat yayıldı: "Süni intellekt texnologiyası Lope de Veqanın naməlum pyesini aşkar edib"**.** Məlum oldu ki, İspaniya Milli Kitabxanasında tətbiq edilən süni intellekt texnologiyası görkəmli ispan dramaturqu, şairi və yazıçısı Lope de Veqanın "Fransız qadın Laura" adlı naməlum pyesini ortaya çıxarıb. Vyana və Valyadolid universitetlərinin tədqiqatçıları **neyroşəbəkədən istifadə etməklə bu arxivlərdə 1300 anonim əlyazma və kitablar** aşkar ediblər. İspaniya Milli Kitabxanası bəyan edib ki, "Fransız qadın Laura" pyesində istifadə olunan **sözlər eksperimentdə yoxlanılan 350 dramaturqun arasında yalnız Lope de Veqanın yazı üslubuna uyğundur. Peşəkar filoloqlar da bu nəticəni təsdiq ediblər.** (URL – 2). Göründüyü kimi, süni intellektin xüsusi bir istiqaməti olan Təbii dilin emalı vasitəsilə əlyazma mətnləri oxunmuş və neyron şəbəkələr hesabına mətnin müəllifi müəyyənləşdirilmişdir. Deməli, süni intellekt Lope de Veqanın yazı üslubunu öyrənməklə Ekspert sistemləri əsasında yoxlanılan əsərin ispan dramaturquna məxsus olduğunu ortaya çıxarmışdır. Yəni süni intellektin ekspert biliyi hesabına əsərin müəllifi bəlli olmuşdur. Beləliklə, süni intellekt ona öyrədilən bilik əsasında analiz aparmış, müxtəlif

mətnləri etalon mətnlə (Lope de Veqanın yazı üslubu) tutuşdurmuş və qərar qəbul etmişdir. Deməli, burada əsas məqam süni intellektə öyrədilən biliklə bağlıdır.

Lakin bu proses heç bir riyazi hesablama, əməllər ardıcıllığı aparılmadan fərdi müşahidə və kollektiv dəyərləndirmə qabiliyyətinə malik olan, daha doğrusu, fərd-kollektiv münasibətlərinin müxtəlif faktorlar (psixoloji arzudan tutmuş sosial maraqlara qədər), şərtlər əsasında kombinasiyasından doğan, müşahidənin təcrübəyə, təcrübənin dəyərə, dəyərin (söhbət hər hansısa müsbət, pozitiv, yüksək mənəvi-əxlaqi dəyərdən getmir) düşüncə və davranışa – ənənəyə (müəyyən zaman kəsimində, müəyyən sosial qruplar içərisində sabitləşmiş, qəralaşmış, normativləşmiş, stereotipləşmiş) çevrilərək ötürüldüyü kollektiv yaradıcılıq məhsulu olan folklorda hazır şəkildə (məntiqi model) mövcuddur. Belə ki, mahiyyəti etibarı ilə insan, cəmiyyət və təbiət haqqında diaxron və sinxron planda ən müxtəlif səviyyələrdə informasiya bilik və qənaətləri özündə əks etdirən folklor, əslində, fiziki, metafiziki, rasional, irrasional məlumatları, şüuri və qeyri-şüuri münasibəti, fərdi və sosial qrupların maraq və ehtiyaclarından doğan reaksiyaları fərqli sosial şərtlərlə korrelyasiya olunaraq ehtiva edir. Yəni hər hansı bir folklor faktı təsəvvür edə bilməyəcəyimiz səviyyədə şərtlərin, faktorların, vəziyyətlərin nəzərə alınmasından, onların asılılıqlarının “qiymətləndirilməsindən” doğan bilik nümunəsidir. Çünki folklorik fakt metaforik-simvolik mahiyyət kəsb edir. Düşüncə və münasibətin ifadə olunduğu vasitələr real nəsnə və situasiyalar üzərində qurulsa da, onun mahiyyəti hərfi gerçəkliklə sərhədlənmir. Linqvistik faktın məna çalarlılığı onun mahiyyətindəki çoxsemantikalılıqla şərtlənir. Çoxsemantikalılıq isə müxtəlif maraq, arzu, ehtiyac və s.-nin təmsil olunduğu çoxtərəfliliklə xarakterizə oluna bilər. Nəzərə almaq lazımdır ki, folklorik faktın çoxmənalılığı həm də həmin faktın müxtəlif şərait və situasiyalar, maraq və mövqelərdən görünən mənzərəsidir. Odur ki, hər hansı bir mətn faktı ilkin, hərfi, zahiri, açıq məna ilə yanaşı, digər anlamları da ifadə edə bilir. Yəni sözün təklikdə, digər sözlə və yaxud sözlərlə, cümlə daxilində, müəyyən bir disskurs içərisində morfoloji, leksik, sintaktik mənası, ən ümumi mənada qrammatikası subyektin maraq və istəkləri, arzu və ehtiyacları kontekstində dəyişir. Hər hansı bir folklor faktının da həm diaxron (tarixi zaman oxu üzrə), həm də sinxron (cari zaman kəsiyində) planda, eyni zamanda fərdi və sosial maraqlar çərçivəsində çoxsaylı məna çalarları vardır ki, bu da faktın məna potensialını ifadə edir. Belə demək mümkündürsə, folklorik fakt metaforik-simvolik məna kəsb etdiyindən, məntiq (şüur) və emosiyanın (instinkt, qeyri-şüuri) çulğalaşmasından əmələ gəldiyindən onun mahiyyətinin qeyri-müəyyənlik payı müəyyənlik hissəsindən qat-qat daha çoxdur. Nəzərə alsaq ki, *“təbii dil perseptiv informasiyanın, yəni bilavasitə ölçülə bilməyən informasiyanın təsvir sistemi kimi qəbul olunur”* (Abdulla, Əliyev, 2023: 50) bu halda folklor mətnindəki metaforalar *“dilin obyektiv aləmdəki daha dərin və obyektiv həqiqəti ifadə etməsi”* (Abdulla, Əliyev, 2023: 50) kimi anlaşılmalıdır. Bu əlaməti süni intellektin öyrənmə, dərinləşmə, “ağıllanma” potensialı ilə müqayisə etmək olar. Süni intellekt daim öyrənməklə özü-özünü inkişaf etdirən, dinamik sistemdir. Süni intellekt daim yenilənməklə cari məlumatları qeydə və nəzərə almaqla “işləyir”. Folklorik fakt da təbiəti etibarı ilə statik, birmənalı deyil, dinamik və dəyişkəndir. Başqa şəkildə desək, hər hansı bir folklorik faktın yarandığı və söyləndiyi konkret, cari situasiyadakı mənası ilə həmin faktın sonradan ən müxtəlif maraq və mövqelər əsasında aktuallaşma potensialında mənalandırılma intervalı kifayət qədər genişdir. Sosial şərtlər, sosial qruplararası münasibətlər fərqli olduqca folklorik faktın mənalandırılma imkanları da genişlənir. Fakt zahirən oxşar olsa da, konkret situasiyada kəsb etdiyi məna fərqli ola bilər. Bu isə hər bir folklorik faktın geniş interpretasiya potensialına malik olduğunu göstərir. Beləliklə, **folklorun yaranmasında iştirak edən kollektiv düşüncə fərddən sosial qrupa (fərdi mövqe və maraqdan sosial qrupun mövqe və maraqlarına), yarandığı tarixi sosial şərtlərdən cari aktuallaşma situasiyasındakı gerçəkliyə qədər mövcud olan bütün faktorlar, şərtlər nəzərə alınmaqla mənalana və ya mənalandırıla bilər.** Deməli, folklorun özəlliyi təkcə “folk”-un istehsal etdiyi “lore”-nin çoxmənalılığında, metaforikliyində, simvolikliyində deyil, həm də “folk”-un özünün çoxsəviyyəli və çoxmənalılığını təmin edən dinamikliyindədir. Alan Dundesin xalq və bilik barədə konseptual yanaşmasını (Dundes, 1980: 1-19) əsas götürərək müqayisə etsək, aşağıdakı mənzərə alınar:

| Folk | Lore |
|---|---|
| ➢ ayrı-ayrı fərdlərin sosial qrup şəklində təsisatıdır;<br>➢ ayrı-ayrı fərdlərin ortaq maraq, şərikli faktorlar əsasında təmərküzləşməsidir; | ➢ ən azı iki şəxsdən tutmuş müəyyən bir xalqa qədər olan intervalda sosial qrupun dünyagörüşünün söz, yazı, hərəkət, musiqi və s. vasitəsi ilə təzühürüdür; |

| | |
|---|---|
| ➢ ayrı-ayrı fərdlərin dinamik sosial proseslər və dəyişən sosial şərtlər kontekstində ortaya çıxan sosial birliyidir;<br>➢ monokomponentlikdən multifaktorluğa doğru dəyişə bilir; | ➢ sosial ünsiyyət və qarşılıqlı təsir hesabına yayıla, dəyişə və variantlaşa bilən kollektiv bilikdir;<br>➢ gerçəkliyi psixoloji kompleks və sosial stereotiplərlə korreliyasiyada qavrayaraq ifadə edən sosial qrupun kollektiv reaksiyasının təzührüdür;<br>➢ onu yaradan sosial qrupun maraqlarına görə dəyişir;<br>➢ bəzən hazır qəlibdə, bəzən isə qəlibləşməmiş şəkildə ortaya çıxır;<br>➢ tarixi semantikası ilə cari mənası fərqlənə bilir;<br>➢ hərfi, birbaşa deyil, metaforik-simvolik mənaya malikdir;<br>➢ etnik, milli, regional spesifikaya, dil-üslub özəlliyinə malikdir; |

Bütün bu əlamətlər hər hansı bir folklor faktının sadə, birtərəfli, zahiri, açıq, cari mənalarla yanaşı, mürəkkəb, çoxmənalı, çoxparametrli, daxili, latent və s. mahiyyət kəsb etdiyini göstərir. Xalq biliyinin mahiyyətindəki belə bir potensial onu statik deyil, dinamik təbiətli sistem kimi qəbul etməyi zəruri edir. Beləliklə, folklorun sosial mühit və şərtlər, ünsiyyət və qarşılıqlı təsir çərçivəsində mövcud olan insanın kollektiv təbii intellektinin (eyni zamanda instinkt, emosiya və fantaziyasının) məhsulu olması, daha doğrusu, özündə dərketmə, duyma, qavrama, öyrənmə (öyrətmə), çoxsaylı faktor və komponentləri nəzərə almaqla otaya çıxan biliyi (qeyri-səlis mənanı!) ehtiva etməsi onlar arasında ortaq nöqtələrin üzə çıxarılmasına imkan verir. Çünki folklorun mahiyyətindəki bilik bütün hallarda müəyyən bir situasiya, vəziyyət haqqında kollektiv düşüncəni, fərdi mövqe və maraqla korelyasiya olunan reaksiyanı təcəssüm etdirir. Buradakı fərdi mövqe və kollektiv reaksiya arasındakı korrelyativlik, son nəticədə, biliyin fleksibilliyini şərtləndirir. Düşünürük ki, süni intellektin qeyri-səlis məntiqə söykənən, birqiymətli olmayan, dəyişəbilən, şərtlər çoxluğuna əsaslanan imkanları ilə folklorun fleksibilliyi olduqca maraqlı bir vəziyyət yaradır. Şübhəsiz ki, qeyri-səlislik düşüncənin təbiətindən qaynaqlanır. Dildə, düşüncənin ifadəsindəki şərtilik, nisbilik, çoxmənalılıq, qeyri-müəyyənlik, irrasionallıq, şüuriliklə qeyri-şüuriliyin, ağılla emosiyanın çulğalaşması qeyri-səlisliyi ortaya çıxarır.

Süni intellekt və folklorun ortaq, kəsişən nöqtələrini, apardığımız müqayisə və təhlilləri nəzərə almaqla bir neçə tezis irəli sürə bilərik:

- ***folklor kollektiv təbii intellekt (məntiqi model) kimi süni intellektə töhfə vermək potensialına malikdir;***
- ***folklor sosial mühit və şərtlər içərisində mövcud olan varlığın əməliyyat sistemi kimi süni intellektin sosial varlıq imkanlarının genişləndirilməsi üçün qaynaq rolunu oyanaya bilər;***
- ***folklor təkcə kollektiv təbii intellektin deyil, kollektiv təbii yaradıcılığın (intellekt və emosiya) məhsulu olduğundan süni intellektin "insaniləşdirilməsi" üçün geniş imkanlara malikdir;***
- ***folklor etnik, milli dəyərlərə, tabu və yasaqlara, stereotip adət və ənənələrə, etik-estetik özəlliyə, dil-üslub baxımından vernakular spesifikaya malik olduğundan süni intellektin etnik-milli identikliyinin təmin edilməsi üçün unikal potensiala sahibdir;***

Beləliklə, süni intellekt və folklor münasibətləri barədə apardığımız təhlilləri ümumiləşdirərək deyə bilərik ki, bir tərəfdən gündəlik həyatımızda süni intellekt texnologiyalarının geniş tətbiqi, digər tərəfdən isə, süni intellektin sosial-mədəni varlıq kimi cəmiyyətə adaptasiyası bu sahədə aparılan tədqiqatları daha da genişəndirməyi və dərinləşdirməyi zəruri edir. Nəzərə almaq lazımdır ki, bu gün fəaliyyətimizin bütün istiqamətlərində biz süni zəkadan, daha doğrusu süni zəka qaynaqlı proqramlardan, tətbiqlərdən istifadə edirik. Başqa cür desək, bu gün insanlarla robotlar, insanla süni zəka yan-yana yaşamaqdadır. Belə bir gerçəklik süni intellektlə birgə yaşayışın ən müxtəlif problemlərini – etik, əxlaqi, hüquqi, mənəvi və s.-ni aktuallaşdırır.

**Kollektiv təbii intellektin süni intellektə transformasiya potensialı: atalar sözlərinə transduktiv model rakursundan baxış**

Bəllidir ki, folklor müxtəlif sosial qrupların ortaq dünyagörüşü, üst-üstə düşən maraq və ehtiyaclarının metaforik-simvolik ifadəsi, başqa sözlə desək, kollektiv yaradıcılığının məhsuludur. İstər dünyagörüşün ümumiliyi, istər düşüncənin qramatikasındakı ortaqlıq, eləcə də kommunikasiya hesabına xalq biliyi fərddən başlamaqla, sosial qrupun, kollektivin "malı"na çevrilir, geniş yayılmaqla müxtəlif mövqe və maraqlara adaptasiya olunur. Son nəticədə, hipotetik olaraq fərddən başlayan proses kollektivin reaksiyasının ifadəsinə xidmət edir. Deməli, fərdin, sosial qrupun maraq və arzuları sosial mühit – qarşılıqlı ünsiyyət və mübadilə hesabına kollektivin maraqlarına transformasiya olunur. Folkloru (xalq biliyini) ayrı-ayrı fərdlərin biliyinin sosiallaşması, kollektivləşməsi, nəhayət kollektiv təbii intellektin ifadəsi hesab etsək, bu halda özünün mahiyyəti və funksiyası baxımından *"ağıllı varlıqlarla əlaqələndirilən vəzifələri yerinə yetirmək qabiliyyəti"* (Copeland, 2024) kimi xarakterizə olunan süni intellekt arasında ciddi əlaqə qurmaq mümkündür.

Ümumiyyətlə, atalar sözlərinə diqqət yetirəndə məlum olur ki, onlar yarandığı dövrün dünyagörüş və dəyərlərini, davranış qaydaları və normalarını, tabu və yasaqlarını ("olar" və "olmaz"larını) özündə əks etdirir. V.Mieder atalar sözlərinin mühüm keyfiyyəti kimi onun *"dəqiqlik, yığcamlıq, ümumiləşmiş, keçərlilik iddiası"*nı (Röhrich, Mieder, 2003: 357)" vurğulayır. Hesab edirik ki, atalar sözlərinin kateqoriallığı, müdriklik iddiası onun "formul" verməsi və aksiomatikliyi ilə izah oluna bilər (Quliyev 2018: 167). Həqiqətən də, atalar sözləri sosial mühitin ən müxtəlif sahələri üzrə bilik və qənaətləri, hökm və imperativləri ifadə edir. Atalar sözlərinin aksiomatikliyi və formul/düstur modelində olması həm də onların müxtəlif həyati situasiyalarda sınaqdan çıxması, müşahidə və təcrübəni özündə ehtiva etməsindən qaynaqlanır. Bir tərəfdən atalar sözlərinin kollektiv reaksiya modelində (qəlib-forma) yaranması, digər tərəfdən isə fərdi müşahidə və təcrübələrin kommunikativ sosial mühit hesabına paylaşılaraq yayılması onları kollektiv düşüncənin məhsuluna çevirir. Bu o deməkdir ki, folklor nümunələri, konkret halda atalar sözləri kollektiv təbii intellektin vahidləridir. Başqa cür desək, kollektiv təbii intellekt biri-biri ilə qaşılıqlı əlaqə və ünsiyyətdə olan ayrı-ayrı fərdlərin (və ya sosial qrupların) intellektlərinin (təcrübə və biliyinin) sosial maraq və kommunikativ münasibət cəmindən təşkil olunmuşdur. Burada məsələ qaşılıqlı əlaqə və ünsiyyət nəticəsində ortaya çıxan sosial mühitdən, hipotetik olaraq, kollektiv təbii intellekti formalaşdıran prosesdən və şəraitdən gedir. Bu baxımdan atalar sözlərinin ən mühüm özəlliklərindən biri bütövlükdə sosial gerçəklik, müxtəlif hadisə və situasiyalar barədə irəli sürülən fikrin imperativ xarakter daşımasıdır. Çünki hər bir atalar sözü mövzusundan asılı olmayaraq, müəyyən bir hadisənin məntiqi hökmlə ifadə olunan diskursiv modelidir. Burada hər hansı bir siatuasiyaya verilən reaksiya kollektiv düşüncə modelində olmaqla yanaşı, situasiyanın fəlsəfi dərki və məntiqi modellərlə ifadəsinə əsaslanır. Yəni atalar sözü kollektiv təbii intellektin idraki proseslərdən keçməklə fəlsəfi ümumiləşdirmə və məntiqi hökm əsasında təcəssüm olunan janrı//qəlibi//modelidir.

Atalar sözləri sanki qarşı tərəflə "danışır", kiməsə yol göstərir (məsələn, "Tələsən təndirə düşər", "Məsləhətli don geniş olar"). Metaforik olaraq, dialoqun birinci tərəfində məntiqi hökmlər irəli sürən müdrik ekspert – öyrədici müəllim, ikinci tərəfində isə öyrənən şagird dayanmışdır. Əslində bu tipli deyim və ifadələrin "atalar sözləri" adlandırılması məhz ataya, əcdada, emosional-psixoloji olaraq mötəbər mənbəyə söykənməyin nəticəsidir. Yəni atalar sözləri həm əcdadların, uluların düşüncəsinin, intellektual-mənəvi "senzurasının" məhsuludur, həm də onlara istinadən mötəbərlik, müqəddəslik, normativlik emosional yükünü daşımaqdadır. Odur ki, atalar sözlərində mütləq şəkildə böyüklə kiçiyin, yölgöstərənlə yol gedənin "dialoqu" vardır. Janrın mahiyyətindəki bu kommunikativlik təkcə onun konkretliyi və lakonikliyində deyil, həm də müdriklik və kamilliklə müşahidə olunan imperativliyində də özünü göstərir. Başqa cür desək, məntiqi hökmdə düsturlaşan, modelləşən fikir-qəlib kommunikativlik xarakteri hesabına fərd-kollektiv-fərd performativ aktında idraki proseslərdən keçir. Bu isə, son nəticədə, məzmun etibarı ilə neqativ, pozitiv, etik-qeyri-etik və yaxud qeyri-estetik olmasından asılı olmayaraq, kollektiv təbii intellektin "süzgəcindən" keçərək qəlibləşən, kristallaşan düşüncə faktlarını ortaya çıxarır. Beləliklə, atalar sözləri, o cümlədən, paremioloji vahidlər fərdin və yaxud sosial qrupun kritik situasiya qarşısında müraciət etdiyi, çıxış yolu axtardığı, anoloji təcrübələrdən bəhrələndiyi kollektiv bilik arsenalıdır. Burada ən mühüm məqam atalar sözlərinin təsvir etdiyi mövzu-məzmunda deyil, həmin mövzu və məzmunun tabe olduğu məntiqi hökmdədir. Atalar sözləri ideya olaraq fiziki və ya metafiziki gerçəkliyin qanunauyğunluqlarının (stereotip modeli) rasional-məntiqi təqdiminə əsaslanır. Bu baxımdan təbii intellektin davamı, oxşarı və yaxud bəzi

funksiyalarının ifaçısı kimi süni intellektin üzərində bərqərar olduğu “səbəb-nəticə” məntiqi zəncirinə, qərarqəbuletmə, proqnozlaşdırama, nəzarət və idarətmə proseslərinə kollektiv təbii intellektin tətbiqi – transformasiyası rakursundan baxılması olduqca mühüm perspektivlər vəd edir. Nəzərə almaq lazımdır ki, atalar sözləri işarə və funksiya baxımından da, müəyyən bir məntiqə əsaslanır. Folklorşünas A.Xəlil atalar sözlərini işarə və funksiya baxımından belə təsnif edir (Xəlil, 2006: 73):

| İşarələr: | Funksiyalar: |
|---|---|
| 1. Göstərici işarələr | 1. Aydınlaşdırma |
| 2. Xəbərdarlıqedici işarələr | 2. Məlumatlandırma |
| 3. Şərti işarələr | 3. Öyrətmə |
| 4. Yasaqedici işarələr | 4. Qoruma |

A.Xəlil yazır ki, “*Bu işarələr altında etnosun sosial-tarixi təcrübəsi kodlaşdırılır, proqramlaşdırılır və davranış formulları şəklində təqdim olunur*” (Xəlil, 2006: 74). Göründüyü kimi, atalar sözlərinin semiotik strukturu, semantikası və funksional mahiyyəti birbaşa olaraq, idraki proseslərlə bağlıdır. Bunu atalar sözlərinin rasional məntiqi strukturu və funksional semantikası bir daha təsdiq edir. Əslində, sosial-tarixi təcrübənin həm kodlaşdırılması, həm proqramlaşdırılması, həm də davranış formullarına çevrilməsi bütün hallarda verilənlərin informasiyaya, informasiyanın biliyə, biliyin isə müdrikliyə trasformasiyasını ehtiva edən idraki ierarxiyanı xatırladır. A.Xəlilin atalar sözləri barədə müəyyənləşdirdiyi funksiyalardan da göründüyü kimi, (*aydınlaşdırma, məlumatlandırma, öyrətmə, qoruma*) bunlardan bəziləri **sistemin mövcud daxili strukturu** (sosial norma və qaydalar, tabu və yasaqlar, “olar-olmazlar”) və **münasibətlərin düzümü** (sosial ierarxiya, “böyük-kiçik”), bəziləri isə, **sistemin gələcək taleyi** (proqnostik, xəbərdarlıqedici), bəziləri isə, **sistemin təhlükəsilziyi** (Yasaqedici işarələr və qoruma funksiyası) barədə bilikləri özündə ehtiva edir. İstər münasibətlərin ierarxiyası, arxitekturu, istərsə də hadisələrin gedişinin “səbəb-nəticə” modelində təsbitini ehtiva edən atalar sözləri öyrədici funksiyaya malikdir. Yəni metaforik olaraq, sosial mühitdə yaşamaq, inkişaf etmək, təhlükə və maneələrdən itkisiz və ya az itki ilə keçmək üçün fərd sosial-mədəni institut kimi atalar sözləri vasitəsilə yetişdirilir. Fərd həm bilikləri öyrənir, həm də praktik olaraq öz yaşamında bunları təcrübədən keçirir. Beləliklə, folklor (atalar sözləri) sosial mühitdə davranışları idarə edən, hadisələrin gedişatını proqnozlaşdıran, sistemin dayanıqlılığını nəzarətdə saxlayan, təhlükəsizliyini təmin edən prototip modeldir. Bu rakursdan süni intellekt və folklor məsələsinə, daha doğrusu, süni intellektə folklorun töhfəsi aspektindən baxdıqda iki məqam diqqəti cəlb edir:

1. Müəyyən bir atalar sözünün məntiqi modelində ifadə olunan mənanın onu doğuran sosial-mədəni gerçəkliyin münasibətlər ierarxiyası (sosial şərtlər toplusu) kontekstində semantik interpretasiyası;

2. Atalar sözlərinin mahiyyətində kodlaşan məntiqi hökmün transduktiv model olaraq süni intellektə tətbiqi perspektivlərinin müəyyənləşdirilməsi;

Birinci rakurs, kollektiv təbii intellektin təzahürü kimi atalar sözlərində kodlaşan mənanın dekodlaşdırılması, başqa sözlə, atalar sözlərinin meydana çıxdığı sosial mühitin münasibətlər ierarxiyası kontekstində məntiqi hökmün interpretasiyası. Atalar sözünün müəyyən bir sistemdə münasibətlərin mövcud düzümü və yaxud gələcək taleyi barədə özündə daşıdığı bilik, ilk növbədə süni intellektə əsaslanan sistemin idarə olunması (nəzarətin həyata keçirilməsi, təhlükəsizliyinin təmin edilməsi, risklərin qiymətləndirilməsi, qərarların qəbulu və s.) perspektivləri baxımından diqqəti cəlb edir. İkinci rakursdan məsələyə yanaşma, konkret olaraq atalar sözlərinin mahiyyətində ifadə olunan biliyin süni intellektə əsaslanan sistemə tətbiqi perspektivlərinin müəyyənləşdirilməsini nəzərdə tutur.

Konkret atalar sözləri nümunələrini sintaqmatik struktur, məntiqi hökmlər və burada kodlaşdırılan mənalar kontekstində təhlil etsək, burada proseslərin idarə olunması, proqnozlaşdırılması, nəzarət və idarəetmə baxımından bəzi müqayisələr apara bilərik. Yeri gəlmişkən onu da vurğulayaq ki, atalar sözləri onun yaradan düşüncənin təbiətinə və dildə ifadə imkanlarına görə qeyri-səlis məntiq üzərində qurulmuşdur. Nümunələrə diqqət yetirək:

**“Yüz ölç, bir biç”**

Bu atalar sözü hərfi mənada müəyyən bir peşə, sənətlə (dərziliklə) bağlıdır. Mənası ondan ibarətdir ki, müəyyən bir işi (burada paltarı) görməzdən, hər hansı bir addımı atmazdan əvvəl dəfələrlə düşünmək (ölçmək) ən sonda qərar vermək (burada paltarı biçmək, yəni kəsmək) lazımdır. Xəbərdarlıqedici işarəni özündə daşıyan bu atalar sözünün funksiyası məlumatlandırmadır. Atalar sözünün metaforik-simvolik mahiyyəti ondan ibarətdir ki, insan sosial mühitdə müxtəlif münasibətlər

sferasında davranışlarını tənzimləyərkən dəfələrlə düşünməli və sonra qərar qəbul etməlidir. Nəzərə almalıyıq ki, atalar sözləri metaforik simvolik mahiyyət daşıdığı üçün onun linqvistik ifadəsində bir sıra şərtiliklər və nisbiliklər mövcuddur. Belə ki, L.Zadə məntiqi ilə yanaşsaq, buradakı "yüz", bəzi variantlarda "min" sayı qeyri-səlis çoxluğu ifadə edir. Yəni "yüz" və yaxud "min" dəfə ölçmək şərti qeyri-müəyyənlikdən müəyyənliyə – qaranlıqdan işığa doğru keçidin qeyri-səlis çoxluğunu ifadə edir. Məlum olur ki, atalar sözü bizə qərar qəbul etmədə çoxsaylı faktları, rəyləri, mövqeləri, faktorları, komponentləri və s.-ni nəzərə almağı diqtə edir. Təbii ki, bu məntiq istənilən sistemin mövcudluğu üçün keçərlidir.

**"Məsləhətli don geniş olar"** deyiminin zahiri mənası yenə də məişət həyatı, konkret olaraq, geyimlə, paltarla bağlıdır. Lakin deyimin mahiyyətində məsləhətləşmənin, başqa sözlə, müzakirənin əhəmiyyəti diqqətə çatdırılır. Buradakı metaforikliyi şərh etsək, məlum olar ki, "donun genişliyi" pozitiv, "darlığı" isə neqativ əlamət kimi qarşılaşdırılır. Vəziyyətdən çıxış yolu kimi irəli sürülən fikir isə - məsləhətləşmədir. Yəni burada qərar qəbuletmədə çox vacib komponent olan müzakirə, fikirlərin, rəylərin dinlənilməsi tövsiyə olunur ki, bu da süni intellektin iş prinsipləri baxımından əhəmiyyətli ola bilər.

Eləcə də **"Ağıl ağıldan ötkəmdir"** deyimi eyni məntiqi model üzərində qurulmuşdur. Burada da qərar qəbuletmədə fərdi deyil, çoxsaylı "ağılları" nəzərə almaq vurğulanır.

**"Eşşək palçığa bir dəfə batar"** deyimi çox məşhur olan və daha çox dəfələrlə səhv edən şəxsi məzəmmət etmək, qınamaq məqamında deyilən ifadədir. Atalar sözünün konteksti ondan ibarətdir ki, hətta eşşək də palçığa bir dəfə batar və yaxud eşşək kimi palçığa bir dəfə batmaq olar. Bütün hallarda burada insan fəaliyyətində tez-tez rast gəlinən kritik vəziyyətlərdən çıxmaq üçün səhvlərdən nəticə çıxarmaq məsələsi vurğulanır. Deyimin metaforik-simvolik anlamı onu ifadə edir ki, qanmazlığın simvolu olan eşşək də bir dəfə səhvə yol verir. Təbii ki, səhvlər istisna olunmur, lakin burada xalq müdrikliyi səhvlərdən nəticə çıxarmağı, keçmişə baxmağı tövsiyə edir. Şübhəsiz ki, buradakı "bir dəfə" hərfi deyil, məcazi məna daşıyır və qeyri-səlis "1"-dən söhbət gedir. Yəni səhvlər, yanlışlar, təhriflər, təbii ki, 1 dəfə baş vermir. Deyimin əsas məntiqi qərar qəbul etmədə presidentlərə əsaslanmadır. Süni intellektin iş prinsipi baxımından burada mühüm olan məqam səhvlərin ümumiləşdirilməsidir.

**"Nə tökərsən aşına, o da çıxar qarşına (qaşığına)":** bu atalar sözünün hərfi anlamı ondan ibarətdir ki, yeməyə nə tökərsənsə, onu da yeyərsən. Deyimin işlənilmə konteksti isə, daha çox neqativ planla – edilən pisliyin insanın özünün qarşısına çıxacağı barədə xəbərdarlıqla bağlıdır. Yəni yaxşılıq edərsənsə, yaxşılıq, pislik edərsənsə, pislik görərsən. Bu atalar sözünün funksional semantikası kollektiv reaksiya modeli əsasında xəbərdaredicilikdir. Başqa sözlə desək, fərd sosial mühitdə öz davranışlarını nizamlayarkən bu prinsipə riayət etməlidir. Süni intellektin işləmə prinsipi baxımından bu atalar sözünü aşağıdakı kimi təhlil edə bilərik: qərar qəbuletmədə istifadə olunan verilənlərin keyfiyyəti qərarın optimallığına dəlalət edəcəkdir. Yəni istənilən bir sistem (sosial, texnoloji) müəyyən bir hadisə və yaxud qanunauyğunluğu aşkarlamaq üçün verilənlərin toplanılması, seçilməsi, təsnifi, klasterləşdirilməsi, obyektivliyi, autentikliyi və s. ni təmin etməsə, yekunda qəbul edilən qərar, çıxan nəticənin optimallığı, həqiqiliyi, doğruluğu şübhə altına düşəcəkdir.

**Nəticə**

Göründüyü kimi, "süni intellekt və folklor" mövzusu geniş perspektivə malik olmaqla çox az araşdırılmış problemlərdəndir. Xüsusilə də, süni intellektin tətbiqi istiqamətlərində folklordan istifadəyə, demək olar ki, rast gəlinmir. Lakin kollektiv təbii intellektin süni intellektə tətbiqinin böyük imkanları mövcuddur.

Eyni zamanda araşdırma nəticəsində müəyyən etdik ki, folklor etnik, milli dəyərlərə, tabu və yasaqlara, stereotip adət və ənənələrə, etik-estetik özəlliyə, dil-üslub baxımından vernakular spesifikaya malik olduğundan süni intellektin etnik-milli identikliyinin təmin edilməsi üçün unikal potensiala sahibdir.

Aparılan təhlillər onu göstərir ki, təbiət, cəmiyyət, sosial münasibətlərin modelləşdirilməsi əsasında qurulan xalq biliyi, xüsusilə də atalar sözləri folklor (atalar sözləri) sosial mühitdə davranışları idarə edən, hadisələrin gedişatını proqnozlaşdıran, sistemin dayanıqlılığını nəzarətdə saxlayan, təhlükəsizliyini təmin edən prototip modeldir. Bu isə, atalar sözlərində mövcud olan hazır biliyin süni intellekt əsaslı sistemlərə tətbiqi üçün əlverişli imkan yaradır.

Konkret atalar sözləri nümunələrini sintaqmatik struktur, məntiqi hökmlər və burada kodlaşdırılan mənalar kontekstində təhlilindən aydın oldu ki, atalar sözləri onun yaradan düşüncənin təbiətinə və dildə ifadə imkanlarına görə qeyri-səlis məntiq üzərində qurulmuşdur. Odur ki, proseslərin

idarə olunması, proqnozlaşdırılması, nəzarət və idarəetmə baxımından atalar sözləri, bütövlükdə, folklor nümunələri süni intellektin ilham mənbələrindən biri olmaq potensialına malikdir.

## Ədəbiyyat


1. Abdulla K., Əliyev R. "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq (3-cü təkmilləşdirilmiş nəşr). Bakı: TEAS, 2023, 180 s.
2. Aksoy H. Folklor ve gelenek kavramlarına "ChatGPT"nin yazdığı masallar üzerinden bakmak. Korkut Ata Türkiyat Araştırmaları Dergisi, Özel sayı 1, s. 524-536, (2023)
3. Bilge Savcı E. Yapay zekanın ürettiği metinlerin halkbilimi açısından değerlendirilmesi. *Motif Akademi Halkbilimi Dergisi,* 16(41), s. 1-14.
4. Copeland, B.J.. "Artificial intelligence". Encyclopedia Britannica, 8 Jul. 2024, https://www.britannica.com/technology/artificial-intelligence. Accessed 9 July 2024.
5. Dundes, A. Who are the Folk? // "İnterpreting Folklore". – Bloomington: İndiana University Press, p. 1-19, (1980).
6. Əliquliyev R. "Süni intellekt xəyalların gerçəkləşməsidir". Müsahibə. "Xalq" qəzeti. 10.10.2023.
7. Xəlil A. Əski türk savlarının semiotikası. Bakı: Səda, 164 s., (2006). Kazımoğlu (İmanov) M. Epos qəhrəmanlarında qeyri-səlislik. Bakı: Elm və təhsil, 2023, 192 s.
8. Koçak R. Beşinci Sanayi Devrimi: Toplum 5.0. ve Yapay Zeka Kültürü, *Uluslararası Halkbilimi Araştırmaları Dergisi,* 5, s. 1-17, (2020).
9. Kızıldağ, H. "Arkaik Devirlerden Post-Hümanizme Ölümsüzlük Arayışındaki İnsan: Ufuktaki Transhümanizm ve Kültür." In Sosyal Bilimler Işığında Doğa, İnsan, Toplum ve Kültür, s. 81-96, (2021)
10. Kızıldağ, H. Yapay zekâ bir masal yaratıcısı/anlatıcısı olabilir mi?: Chatgpt masalları. Turkish Studies - Language, 18(3), 1759-1775, (2023).
11. Quliyev, H. Virtual mühitdə folklor: ənənə və kommunikasiya. Bakı: Sabah, 256 s., (2018).
12. Qurbanov F. "Süni intellektin yaradılması probleminin refleksiyasına dair". Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq. Bakı: Elm və təhsil, s. 219-294, (2022).
13. Özdemir N. Dördüncü sanayi devrimi ve gelenek kültürü. 9. Milletlerarası Türk Halk Kültürü Kongresi Bildirileri (Genel Konular), s. 207-241, (2019A).
14. Özdemir, N. Kuşaklararasılık ve Kültürel Değişme. Çocuk ve Medeniyet, 4(7), 125-149. (2019B).
15. Özdemir, N. Gelenek bilgesi atadan yapay zekaya. *Culture Academy*, 3(1), 1-23, (2023).
16. Özdemir, Y. Post-Truth ve Folklor: Hakikat Sonrası Dönemde Gelenek Bilgisinde Sapalar. Dijital kültür – 3, Arı Sanat Yayınevi, s. 13-61, (2021)
17. Röhrich L., Mieder W. Modern dilde kullanılan atasözlerinin biyolojisi. Hak Biliminde Kuramlar ve Yaklaşımlar, I cild, (2003).
18. Thompson, Tok. "Folklore beyond the Human: Toward a Trans-Special Understanding of Culture, Communication, and Aesthetics." *Journal of Folklore Research* 55.2 (2018).
19. Thompson T. Ghost Stories from the Uncanny Valley Androids, Souls, and the Future of Being Haunted. Western Folklore 78.1 (Winter 2019), pp. 39-65, (2019A).
20. Thompson, Tok Post-Human Folklore. Boulder: University Press of Mississipi, (2019B).
21. Ilıcak N.G., Çinko, K. Yapay zekanın yarattığı masal: Prenses ile Tilki. Uluslararası Türkçe Edebiyat Kültür Eğitim Dergisi, 10(2), 703-719, (2021).


## Veb-resurslar:


URL – 1 AI and School Mythology: Exploring Legends and Folklore. pub. date 08/31/2023, son baxış: 25.04.2024. https://teachflow.ai/ai-and-school-mythology-exploring-legends-and-folklore/#:~:text=The%20concept%20of%20AI%20dates,creations%20that%20mimic%20human%20behavior.

URL – 2 Süni intellekt texnologiyası Lope de Veqanın naməlum pyesini aşkar edib. https://azertag.az/xeber/suni_intellekt_texnologiyasi_lope_de_veqanin_namelum_pyesini_askar_edib-2475398